

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (20.991)

14 may 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Araz-Naxçıvan” Peşəkar Futbol Komandası futbol üzrə Azərbaycan çempionatının birinci divizionunun qalibi olmuşdur




Mayın 12-də Naxçıvan Muxtar Respublika Stadionunda “Araz-Naxçıvan” komandasının futbol üzrə Azərbaycan çempionatının birinci divizionda qalib olması və Premyer-Liqaya vəsiqə qazanması münasibətilə mükafatlandırma mərasimi keçirilmişdir.

Tədbirin aparıcıları qeyd etmişlər ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq yeni futbol meydançaları, stadionlar tikilir, futbol komandaları yaradılır. Futbolun inkişafına göstərilən qayğı ölkəmizin bütün bölgələrində bu idman növünün geniş yayılmasına və kütləvi xarakter almasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikasında da futbolun inkişafına xüsusi diqqət yetirilir. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən futbolun inkişafı istiqamətində konkret vəzifələr müəyyənləşdirilmiş, “Araz-Naxçıvan” futbol komandasının yenidən formalaşdırılması barədə tapşırıqlar verilmişdir. Bundan sonra “Araz-Naxçıvan” böyük futbola qayıtmış və futbol üzrə Azərbaycan çempionatının birinci divizionunun 2013-2014-cü il mövsümündə iştirak etmişdir. Birinci divizionun başa çatmasına hələ 2 tur qalmış çempionluğunu elan edən muxtar respublika təmsilçisi yüksək nəticə əldə etmişdir. Bu qələbə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə ən böyük töhfədir.

Sonra konsert proqramı olmuşdur. Müğənnilərdən Şəmistan Əlizamanlının, Vəli Səfərovun, Türkanə Kərimovanın, Rza Zamanın və Xuraman Ələsgərovanın çıxışları stadiona toplaşmış minlərlə tamaşaçı tərəfindən alqışlarla qarşılanmışdır.

Daha sonra “Araz-Naxçıvan” komandası ilə Mingəçevir şəhərini təmsil edən “Energetik” komandası arasında birinci divizionun növbəti turunun oyunu keçirilmişdir. Əzmkar mübarizə aparan “Araz-Naxçıvan” komandası 9:0 hesabı ilə qələbə qazanmışdır.

Oyundan sonra təntənəli mükafatlandırma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Araz-Naxçıvan” komandasının üzvlərinə medalları və kuboku təqdim etmiş, futbolçulara təbriklərini çatdırmışdır.

Azərbaycan Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev futbolun inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə Peşəkar Futbol Liqasının xatirə medalını təqdim etmişdir.

Sonra Ali Məclisin Sədri “Araz-Naxçıvan” komandasının üzvləri ilə xatirə şəkli çəkdirmiş, çempionluq tortunu kəsmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**











## Qarsda ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü qeyd edilmişdir

***Mayın 9-da Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir.***

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Qars şəhərindəki abidəsi önünə gül dəstələri qoymuş, xatirə şəkli çəkdirmişlər.

Sonra tədbir Qars Qafqaz Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Mərkəzə ümummilli liderimizin həyat və fəaliyyətinə həsr olunmuş kitab və jurnallar, eləcə də Azərbaycan həqiqətlərini əks etdirən materiallar hədiyyə olunmuşdur.

Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Ayxan Süleymanov ulu öndərin dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərindən ətraflı bəhs etmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə tanınması, sürətli sosial-iqtisadi inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dahi şəxsiyyətin 2002-ci ildə Qars şəhərinə səfəri çərçivəsində Qars Qafqaz Universitetində olduğunu xatırladan Baş konsul ulu öndərin dost və qardaş ölkə olan Türkiyə Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırmışdır.

Qars Qafqaz Universitetinin professoru Hacıəli Nəcəfoğlu ümummilli liderin ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olunması və Azərbaycanın inkişafı sahəsindəki xidmətlərindən söhbət açmışdır.

Sonra tədbir iştirakçıları Baş Konsulluqda təşkil edilən ziyafətdə iştirak etmişlər.

Tədbirdə Qars Qafqaz Universitetinin professor-müəllim heyəti, Azərbaycan Milli Elmlər Akademiyasının və akademiyanın Naxçıvan Bölməsinin əməkdaşları, tələbələr və yerli kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

# Heydər Əliyev Muzeyində növbəti açıq dərs



*Dünən Heydər Əliyev Muzeyində Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb şagirdlərinin iştirakı ilə açıq dərs keçilib.*

Açıq dərsdə məktəbin tarix müəllimi Əntiqə Həsənova "Heydər Əliyev və milli birliyimiz" mövzusunda danışaraq bildirib ki, ötən əsrin sonlarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə milli birliyə çağırış ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın Azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi prosesinin başlanğıcını qoyub. Azərbaycançılıq ideyası bir ideologiya kimi məhz müstəqillik dövründə ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılıb. Dahi rəhbərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, milli birliyin düzgün formalaşdırılması istiqamətində də yeni vəzifələrin meydana gəlməsinə və yeni işlərin başlanmasına rəvac verib. Ümummilli lider böyük inamla dünya azərbaycanlılarının bir amal və məslək uğrunda fəal mübarizə aparması işinə başlamaqla bu çətin problemi öz dühasının gücü ilə uğurla həll edib.

Qeyd olunub ki, bu gün xalqımızın söz, əqidə və əməl birliyinə nail olmaq üçün Azərbaycan dövləti tərəfindən görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünyanın dörd bir yanına səpələnmiş milyonlarla azərbaycanlı gücün birlikdə olduğu həqiqətini gün keçdikcə daha aydın dərk edir, Azərbaycan diasporları və icmaları arasında bağlar möhkəmlənir, soydaşlarımız milli hüquqların müdafiəsi işində bir-birinə dayaq durur, tarixi Vətənlə əlaqələrini gücləndirirlər. Onlar yaxşı başa düşürlər ki, milli-mənəvi bütövlüyün möhkəm təməli üzərində qurulan Azərbaycan artıq bütün soydaşlarımızın güvənc yeri olan qüdrətli bir dövlətə çevrilib. Belə ki, çox qısa bir dövr ərzində ölkəmiz istər iqtisadi-siyasi, istərsə də demokratik dövlət quruculuğu baxımından inkişaf etmiş dövlətlər sırasında öz layiqli yerini tutub.

Sonda şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

**Səbuhi HƏSƏNOV**

*Bu il Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkə miqyasında silsilə tədbirlərlə qeyd edilir. Qədim diyarın şərəfli tarixinə bir daha nəzər yetirilir, muxtariyyət əldə etməsinin əhəmiyyəti vurğulanır, bu məkanın dövlətçiliyimizin qurulmasında oynadığı roldan geniş söhbət açılır. Naxçıvan qədim oğuz diyarıdır. Füsunkar təbiətə malik olan bu gözəl yurdumuzda tarixi, dini, memarlıq abidələrinin, toponimlərin hamısı Azərbaycan xalqına məxsusdur. Aparılan tədqiqatlar nəticəsində bir daha təsdiq edilmişdir ki, azərbaycanlılar əsrlər boyu Naxçıvan ərazisində yaşamış, yaratmış, onu düşməndən qorumaq üçün misilsiz qəhrəmanlıq nümunələri göstərmişlər.*

*Naxçıvan Muxtar Respublikası – 90*

# Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini möhtəşəm uğurlarla qeyd edir



Dahilər yurdunun həm də qədim dövlətçilik tarixi vardır. Naxçıvan şəhəri Azərbaycan xalqının formalaşmasında, elmi-mədəni inkişafında xüsusi rol oynayan Atabəylər dövlətinin paytaxtı olmuşdur. 90 il bundan əvvəl Naxçıvana muxtariyyət statusunun verilməsi də təsadüfi deyildi. Azərbaycanın əzəli torpağı Zəngəzur Ermənistana verilmiş, beləliklə, Naxçıvan düşmən əhatəsinə salınmış, coğrafi cəhətdən Azərbaycandan ayrı qalmışdır. Düşmənlərimizin əsas məqsədi gec-tez Azərbaycanın bu qədim diyarını da zəbt edərək Ermənistana birləşdirmək idi. Lakin Azərbaycanın mərd oğulları heç vaxt buna imkan verməmişlər.

XX əsrin əvvəllərində naxçıvanlılar bütün mümkün vasitələrdən istifadə edərək düşmənin qədim diyarla bağlı xain planlarının qarşısını almışdılar. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökuməti Naxçıvana kömək göstərmək iqtidarında olmadığı bir vaxtda qədim yurdun vətənpərvər, igid övladları onu qorumaq üçün səfərbər olmuş, kimi silaha sarılaraq canı, qanı bahasına yurdumuzu qorumuş, kimisi də siyasi-diplomatik təcrübəsindən istifadə edərək bu məkanın üzərindən qara buludların dağılması üçün gecə-gündüz var gücü ilə çalışmışdır.

AXC rəhbərlərindən biri olan Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında etiraf etmişdir ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar".

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra da Naxçıvan çox ağır, məşəqqətli günlər yaşamışdır. Erməni qəsbkarları havadarlarına arxalanaraq muxtar respublikanı işğal etmək istəyirdilər. Həmin dövrdəki mərkəzi hakimiyyət isə Naxçıvana ögey münasibət göstərir, naxçıvanlıların taleyi ilə maraqlanmır, muxtar respublikada sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin planlar həyata keçirirdi.

Ümummilli lider Heydər Əliyev 1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana qayıtmışdı. Qədirbilən naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək erməni təcavüzkarlarına sarsıdıcı zərbələr vurmuş, onları geri çəkilməyə məcbur etmişdilər.

Həmin illərdə Naxçıvanda müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesinə böyük töhfələr verən mühüm qərarlar qəbul edilmişdir. İlk dəfə olaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, milli ordu quruculuğuna başlanılmış, aqrar islahatlar həyata keçirilmişdir. Bütün bunlar müstəqil dövlət quruculuğu konsepsiyasının mühüm tərkib hissələri kimi diqqəti cəlb edir.

Ümummilli liderimiz həmin illərdə muxtar respublikada baş verən prosesləri xatırlayaraq deyirdi: ***"1990-1993-cü illərdə Naxçıvanda keçirdiyim dövr mənim həyatımda xüsusi yer tutur. O illər biz Naxçıvanın ağır dövrünü yaşadıq və Naxçıvanı böyük təhlükələrdən, böyük faciələrdən xilas etdik. O dövr böyük sınaq dövrü oldu. İnsanların öz torpağına, Vətəninə sədaqətinin sınaqdan keçməsi dövrü oldu. Biz bu sınaqdan çox böyük şərəflə çıxdıq".***

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət quruculuğu prosesinə start verilmişdir. Qısa müddət ərzində respublikamızda sabitlik təmin olunmuş, siyasi-iqtisadi islahatlar aparılmış və ölkəmiz inkişaf yoluna qədəm qoymuşdur. Ümummilli lider Naxçıvan Muxtar Respublikasının inkişafına da xüsusi diqqət yetirirdi. Onun tapşırıq və tövsiyələri əsasında muxtar respublikanın iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət qədim diyarımızın sürətli yüksəlişinə rəvac vermişdir.

Faktlara nəzər yetirdikdə biz bunu daha aydın görə bilərik. Belə ki, 1993-2003-cü illər ərzində muxtar respublikada sənaye məhsulunun həcmi 3 dəfə, kənd təsərrüfatında ümumi məhsul istehsalı 4 dəfə artmışdır. Bu dövr ərzində Naxçıvanda 96 təhsil müəssisəsi, 38 səhiyyə, 94 mədəniyyət obyekti, 73 inzibati bina tikilmiş və ya yenidən qurulmuşdur. Bu dövrdə əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərər çəkmiş əhali üçün 47 fərdi ev tikilmiş, 66 körpü, 74 nasos stansiyası, 386 digər infrastruktur obyektləri istifadəyə verilmişdir.

Azərbaycan Prezidentinin təsdiq etdiyi 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Ümumi Daxili Məhsul istehsalı 2003-cü ildəki göstəricini müqayisəli qiymətlərlə 8 dəfə üstələmişdir. Ötən il hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2003-cü ilə nisbətən 7 dəfə artaraq 5423 manat olmuşdur.

Naxçıvanın yüksəlişi prosesi 2013-cü ildən etibarən yeni və daha sürətli mərhələyə qədəm qoymuşdur. Belə ki, 2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2003-cü ilin sonunda muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ildə bu göstərici 7 dəfə artaraq 438-ə çatmışdır. Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır ki, bu da blokada şəraitində olan muxtar respublika üçün böyük göstəricidir.

Strateji mövqedə yerləşən Naxçıvan Muxtar Respublikasının üç tərəfdən düşmən əhatəsində olması onun müdafiə qabiliyyətinin daim gücləndirilməsini zəruri edir. Ona görə də bu məsələ Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Fəxrlə deyə bilərik ki, bu gün muxtar respublikada yaradılan Əlahiddə Ordunun döyüş qabiliyyəti, ümumilikdə, hərbi potensialı kifayət qədər güclənmişdir.

Müasir dövrümüzdə beynəlxalq ekspertlər təhlükəsizlik anlayışları içərisində enerji təhlükəsizliyi məsələsinə daha çox diqqət yetirirlər. Bildirirlər ki, istənilən ölkə və ya region enerji təhlükəsizliyini tam təmin edə bilməyibsə, onda bir sıra problemlərlə qarşılaşması qaçılmazdır. Bu mənada blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinə xüsusi diqqət yetirilməsinin əsas səbəbi də budur.

Dövlət başçısının diqqət və qayğısı, naxçıvanlıların əzmkarlığı sayəsində 14 illik fasilədən sonra, 2005-ci ildə muxtar respublikaya təbii qazın nəqli bərpa edilmişdir. Bu gün Naxçıvanın elə bir yaşayış məntəqəsi yoxdur ki, ora təbii qazla tam təmin edilməsin. Əgər sovetlər dövründə muxtar respublika üzrə cəmi 33 min abonent təbii qazla təmin olunurdusa, bu gün artıq həmin rəqəm 81 min təşkil edir.

2003-cü ilə qədər muxtar respublikada cəmi bir su elektrik stansiyası var idisə, indi 6 yeni elektrik stansiyası fəaliyyət göstərir. Ən önəmlisi budur ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. Bu da dünyada çox nadir hallarda müşahidə edilən bir haldır.

Hər bir ölkənin inkişafını göstərən əsas amillərdən biri də müasir infrastrukturun mövcudluğudur. Bu gün muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər görülür. Son illər Naxçıvanda 725 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 16 körpü tikilmişdir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına da xüsusi diqqət yetirilir. Burada əhalinin 70 faizdən çoxunun kənddə yaşaması bu amili xüsusilə gündəmə gətirir. Kənd təsərrüfatının inkişafı naminə məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlər verilir, torpaq istifadəçilərinin suvarma suyu, gübrə, müasir texnika və avadanlıqlarla təmin olunması ciddi nəzarətdə saxlanılır.

Bütün bunların nəticəsidir ki, 2003-cü illə müqayisədə taxıl istehsalında 41 faiz, tərəvəz istehsalında 25 faiz, meyvə və giləmeyvə istehsalında 46 faiz artım əldə olunmuşdur. Tələbata uyğun olaraq, quşçuluğun və balıqçılığın inkişafı dəstəklənmiş, ötən 10 il ərzində 60 yeni quşçuluq, 11 balıqçılıq təsərrüfatı istifadəyə verilmişdir. Hazırda muxtar respublikada 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsullarına olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bu da Naxçıvanda ərzaq təhlükəsizliyinin təmin olunduğunun göstəricisidir.

Digər bir məqam isə ondan ibarətdir ki, sahibkarlığın inkişafı hesabına məhsul istehsalının həcmi daha da artırılmış, Ümumi Daxili Məhsulda özəl bölmənin xüsusi çəkisi 87 faiz təşkil etmişdir. Yeni istehsal sahələrinin yaradılması hesabına məşğulluq səviyyəsi yüksəlmiş, ötən 10 il ərzində 59 min yeni iş yeri açılmışdır ki, bunun da 43 minə yaxını daimi iş yeridir. Bu isə yüzlərlə ailənin sosial rifah vəziyyətinin yaxşılaşmasına birbaşa təsir göstərən amildir.

Qədim diyarımız, alınmaz qalamız Naxçıvanda əldə edilən böyük nailiyyətləri saymaqla qurtarmaq mümkün deyil. Muxtar respublikadakı nümunədən də gördüyümüz kimi, yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, insanların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar.

Ölkə rəhbəri cənab İlham Əliyev Azərbaycanın, ümumilikdə, türk dünyasının mühüm strateji məkanı olan Naxçıvan Muxtar Respublikasına diqqət və qayğısını heç bir zaman əsirgəməmişdir. Təsadüfi deyil ki, dövlət başçımız 2003-cü ildən bəri 11 dəfə muxtar respublikaya səfər etmişdir. Bu il isə Azərbaycan Prezidentinin qədim diyara səfəri aprelin 7-8-də baş tutmuş, muxtar respublikanın 90 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur.

Prezident İlham Əliyev Naxçıvanda olarkən mühüm əhəmiyyətə malik obyektlərin açılışında iştirak etmişdir. Dövlət başçısının səfəri zamanı "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının, Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının, Gənclər Mərkəzinin, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının və digər mühüm obyektlərin istifadəyə verilməsi burada abadlıq-quruculuq işlərinin sürətlə davam etdiyinin göstəricisidir.

Azərbaycan Prezidenti qədim diyarımızda əldə edilən bu uğurları yüksək qiymətləndirmişdir. Dövlət başçısı demişdir: ***"...Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

***Üç tərəfdən düşmən əhatəsində yaşayan Naxçıvan Muxtar Respublikası bu gün sürətlə inkişaf edir, yüksəlir, çağdaş intibah dövrünü yaşayır. İşgüzarlıqları, qurub-yaratmaq əzmi ilə Vətən sevgisinin misilsiz nümunəsini göstərən naxçıvanlılar, sözün həqiqi mənasında, xarüqələr yaradırlar. Blokada şəraitində olan bir diyarın böyük sürətlə inkişaf etməsi isə çoxlarının diqqətini cəlb edir. Çünki bu gündək dünyanın heç bir yerində blokada şəraitində yaşayan bir məkan bu şəkildə sürətli iqtisadi yüksəlişə nail ola bilməmişdir. Ona görə də beynəlxalq səviyyəli ekspertlər muxtar respublikada müşahidə edilən sürətli inkişaf prosesləri qarşısında təəccüblərini gizlətmir və bunu "İnkişafın Naxçıvan möcüzəsi" adlandırırlar.***

**Rauf ƏLİYEV**
*jurnalist*



## Darıdağ Arsenli Su Müalicəxanasına müraciət edənlərin sayı ilbəil artır

"Mineral suların təbii muzeyi" adlandırılan Naxçıvanda 200-dən artıq mineral və müalicəvi su mənbəyi vardır ki, bunlardan da bir çoxu tərkibinə görə nadir sulardan hesab olunur. Böyük debitə malik olan yeraltı sərvətlərdən biri də Darıdağ arsenli mineral suyudur. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Şorsu dərəsində "Şəfa bulağı" adlanan əraziyə yaxınlaşdıqda quruculuq ərməğanlarının təbiət mənzərələri ilə həmahənglik təşkil etdiyi ecazkar bir mənzərə ilə qarşılaşırsan. Naxçıvan-Ordubad magistralından müalicəxanayadək olan avtomobil yolu asfalt-beton örtük salınmaqla yenidən qurulmuş, burada yeni bina tikilmiş, müalicə olunanların istirahəti üçün hərtərəfli şərait yaradılmışdır.

Darıdağ Arsenli Su Müalicəxanasının direktoru Zəfər Məmmədov deyir ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin dərmanıdır. Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə Q.Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılmış, 1928-ci ildə isə Lanqvaqren bu suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənmişdir. Sonralar da Darıdağ suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilmişdir. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar etmişdir ki, Darıdağ arsenli isti suyunda müalicə olunan xəstələrin bir seans müddətinin 10-12 dəqiqədən artıq olması ürək qan damarlarının genişlənməsinə səbəb olar. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur; Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyinə görə Darıdağ suyu onlardan üstündür.

İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su ona müalicəvi təsir göstərməklə iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı və qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Həmçinin daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artiritlərə müalicəvi təsirini sübuta yetirmişlər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilmişdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə edildiyini bildirən müəssisə direktoru onu da qeyd etdi ki, 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilmişdir. Həkim, müayinə otaqları və qapalı hovuzlardan ibarət olan müalicəxanada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılmışdır. Həkim və müayinə otaqları yeni mebel dəstləri ilə təchiz edilmiş, hovuzlarda döşəməyə mərmər plitələr düzülmüş, havalandırma və işıqlandırma sistemləri quraşdırılmışdır. Müalicəxanada sanitar-gigiyenik qaydalara ciddi əməl olunur, hovuzların vaxtında təmizlənməsi diqqət mərkəzində saxlanılır. 1080 metr dərinlikdən çıxan 5 nömrəli bulaqdan arsenli su borular vasitəsilə qadın və kişilər üçün ayrı-ayrı qapalı hovuzlara nəql edilir. Bulağın gözündə suyun hərarəti 52 dərəcə, vannalarda isə 37-41 dərəcə olur. Burada arsenli su vannası qəbul etməklə revmatik, dəri, əzələ, sinir və dayaq hərəkət sistemləri xəstəliklərinin ambulator müalicəsi aparılır. Müalicə müddəti gündə 10-12 dəqiqə olmaqla, 12-14 gündür. Darıdağ suyunun müvafiq qaydalara uyğun şəraitdə qablaşdırılmış və qurudulmuş formaları öz kimyəvi sabitliyini (tərkibini) saxladığı üçün mənbədənkənar müalicə müəssisələrində, hətta ev şəraitində də istifadəsinin mümkünlüyü onun dəyərini daha da artırır.

Bu tibb ocağında müalicə olunan insanlarla da həmsöhbət olduq. Bakı şəhər sakini Nazim Qəhrəmanov aşağı ətraflarda şiş, dəridə ləkə, ağız boşluğunda diş ətinin qanaxmasından əziyyət çəkdiyini və ikinci ildir ki, bu müalicəxananın xidmətlərindən istifadə etdiyini, müalicənin yaxşı nəticə verdiyini bildirdi. Sumqayıt şəhər sakini Nərminə Bayramova isə dedi ki, oynaq ağrıları ilə əlaqədar birinci dəfədir, buraya gəlirəm. Üçüncü gündür, vanna qəbul edirəm. İlkin nəticələrə görə, səhhətimdə olan problemlərin tezliklə aradan qalxacağına inanıram. Söhbətimizə qoşulan digər müalicə olunanlar da yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər. Onu da qeyd edək ki, müalicəxananın xidmətlərindən təkcə ölkə vətəndaşları deyil, Türkiyə, İran, Rusiya, Ukrayna və Qazaxıstan respublikalarından gələn xəstələr də istifadə edirlər. Təbii ki, müalicəxanaya müraciət edənlərin sayı ildən-ilə artır. Bu məqsədlə müalicəxanada cari təmir işləri aparılmış, tibb ocağının ətrafına müxtəlif meyvə tingləri əkilmiş, buraya müraciət edənlərin daha yaxşı müalicəsi və istirahəti üçün hər cür şərait yaradılmışdır.

✍ **Kərəm HƏSƏNOV**

*Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər*

## Azərbaycan rəssamlığında realist portret və mənzərə janrlarının əsası Naxçıvanda qoyulub

***Naxçıvan elmi-ədəbi, ictimai-siyasi mühiti Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə bir çox sanballı liderlər, şəxsiyyətlər, elm xadimləri, yazıçılar, şairlər, ədəbiyyatşünaslar bəxş etmişdir. Naxçıvan mühitini formalaşdıran bu şəxsiyyətlər Vətənimizin tərəqqisi, inkişafı üçün bir çox qiymətli dəyərlər bəxş edərək mühitin inkişafında misilsiz rol oynamışlar. Bu rubrikada biz Naxçıvanın Azərbaycana bəxş etdiyi dəyərlərdən bəhs edəcəyik.***

Azərbaycan incəsənəti çox qədim bir tarixə malikdir. İncəsənətin bir sahəsi olan rəssamlıq isə insanın daxili aləmindəki duyğularını cəmiyyətlə bölüşməyin ən maraqlı, ən gözəl yoludur. XX əsrin əvvəllərində xalqın ictimai şüuru və mədəniyyətinin ümumi yüksəlişi, realist ədəbiyyatın inkişafı ilə əlaqədar olaraq, təsviri incəsənətdə də yeni inkişaf dövrü olan realist təsviri incəsənətə doğru sıçrayış özünü göstərir. Möhtəşəm sənət əsəri olan təbiətimizin gözəlliyindən, rəng silsiləsindən güc alan rəssamlardan biri Bəhruz Kəngərli realist portret və mənzərə rəsm yaradıcılığının əsasını qoyur. Professional dəzgah boyakarlığının banisi olan Bəhruz Kəngərli yaradıcılığında mənzərə ilk dəfə müstəqil janr kimi formalaşmış və inkişaf etmişdir. Bəhruz Kəngərlinin yaradıcılığında mənzərə janrı mühüm yer tutur. "Naxçıvanda şəlalə", "Dağlıq mənzərə", "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Ağrı dağı", "Köhnə qala", "Əliabad kəndində alaqapı", "Yamxana kəndinə gedən yol", ölkəmizin mədəniyyət abidələrinin təsviri "Möminə xatın türbəsi", "Əshabi-Kəhf dağı", "Nuhun qəbri", ilin fəsilləri "Payız", "Bahar" bu baxımdan diqqətçəkicidir. Bəhruz Kəngərlinin mənzərə əsərləri içərisində özünəməxsus yer tutan "Naxçıvan yadigarı" albomu xüsusi olaraq qeyd edilməlidir. İyirmi rəsm əsərindən ibarət bu albomda Naxçıvanın təbiət mənzərələri, memarlıq abidələrinin təsvirləri, həmçinin bölgənin etnoqrafik xüsusiyyətlərini əks etdirən konkret obrazlar, yaxud ümumiləşdirilmiş bədii tiplər öz əksini tapmışdır. Bu albomda yer alan "Araz", "İlanlı dağ", "Əshabi-Kəhf", "Ədilağa gölü", "Şəlalə" mənzərələri, "İmamzadə", "Atababa günbəzi", "Nuhun qəbri", "Məscid" kimi əsərlər çox qiymətlidir.

Xəlqilik və realizm, insana sevgi, Vətənə sonsuz məhəbbət B.Kəngərli əsərlərinin özəyini təşkil edir. B.Kəngərlinin qiymətli bədii irsində portret janrı da mühüm yer tutur. Azərbaycan incəsənətində Bəhruz Kəngərliyə qədər şərtilik və dekorativlikdən tamamilə azad, müasir formalı, əsl mənada, realist xarakter daşıyan portret əsərləri olmamışdır. Onun, əsasən, akvarel və az hissəsi yağlı boya ilə çəkdiyi portret əsərləri bədii forması, obrazlar baxımından, yaradıcılıq metodu və ifadə tərzinə görə realist xarakter daşıyır. B.Kəngərlinin portret əsərlərinin əksəriyyətini körpə uşaqların müxtəlif şəraitdə, müxtəlif hal və hərəkətdə (30-a qədər) təsvirləri ilə yanaşı, "Qaçqınlar" akvarel silsiləsindən olan əsərlər təşkil edir. "Qaçqınlar" silsiləsinə daxil olan portretlər canlılığı və reallığı ilə fərqlənir. "Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Ayaqyalın qaçqın oğlan" adlı rəsm əsərləri öz canlılığı ilə seçilir. Rəssamın silsilə şəklində yaratdığı qaçqın uşaq obrazları ("Qaçqın qızın portreti" , "Qaçqın İmran") insanda müharibəyə nifrət hissi doğurur.

Onun karikatura və satirik rəsmləri, mənzərə və məişət səhnələrini əks etdirən rəsmləri, akvarel və boyakarlıq əsərləri də çox maraqlıdır. Rəssam 1910-cu illərdə Naxçıvan teatrında "Ölülər" (C.Məmmədquluzadə), "Hacı Qara" (M.F.Axundzadə), "Pəri-cadu" (Ə.Haqverdiyev) tamaşalarına bədii tərtibat və geyim eskizləri vermişdir.

Çox az ömür sürməsinə baxmayaraq, olduqca məhsuldar və geniş diapazonlu yaradıcılığa malik olan istedadlı rəssam Bəhruz Kəngərli 2000-ə yaxın müxtəlif səciyyəli əsərlər yaratmışdır. Məhz bu faktlara əsaslanaraq deyə bilərik ki, novator rəssam Bəhruz Kəngərlinin yaradıcılığı Azərbaycan incəsənəti tarixinə ilklər bəxş edən əsərlər məcmusudur.

✍ **Nərgiz İSMAYILOVA**

## Küllüklər və güllüklər

*"Oğlumun nağılları, yaxud bizim həqiqətlərimiz" silsiləsindən 6-cı nağıl*

Ötən həftəsonu idi. Ailəlikcə ata ocağına – Kəngərli rayonunun Yurdçu kəndinə gedirdik. Şəhərdən yenicə çıxmışdıq. Avtomobilimiz Əliabad qəsəbəsini keçib üzüyuxarı gedəndə qızım yolun sol tərəfindəki yaşıllıqların arasındakı rəngbərəng gülləri göstərərək – ordakı güllüklərə baxın (öz aləmində ayrı-ayrı gülləri nəzərdə tuturdu), – deyə hamımızı əmrinə tabe etdirdi. Qızımın özünəməxsus sevincinə şərik olandan sonra özözümə uca səslə, – bir vaxtlar buralar küllük idi, indi bunları görüb heyrətlənirsən, lap nağıl kimi gəlir adama, – dedim.

Oğlum nağıl sözünü eşitcək mənə tərəf çevrilib uzun-uzun mənalı-mənalı üzümə baxdı. O müddətdə artıq hər şeyi qərarlaşdırmışdıq. Bu gecə oğluma danışacağım nağıl bu barədə olacaqdı. Mənzil başına çatana kimi nağılın süjetini qurmuş, adını da düşünmüşdüm: "Küllüklər və güllüklər".

Kəndə çatandan sonra oğlum həyətimizdəki müxtəlif meyvə ağaclarının altında, sərin havada doyunca oynayıb yorulmuşdu.

Gecə düşüb yatmaq zamanı gələndə nağıla çevrilən daha bir uşaqlıq həqiqətlərimi nağıl eləməyə başladım.

* * *

Bir vaxt vardı, heç nə yoxdu.

Balaca kənddəki sənin kimi balaca bir uşağın dostlarına çevrilən böyük ağaclar vardı. Axşamçağı kölgəsində oynadığın o ağacların heç biri yox idi. Onların yerində daha böyük ərik, alma, gilənar, armud və digər ağaclar Günəşə boylanırdı. Bir gün elə bir zəmanə gəldi ki, həmin balaca oğlan qışda üşüməsin, soyuqdan donmasın deyə, valideynləri o böyük ağacları kəsib qış uzunu yandırmışdılar. Hər ağac kəsiləndə də o balaca oğlan göz yaşlarını silə-silə seyr eləmişdi bu acı mənzərəni.

Hətta o vaxt nəinki onlar, qonum-qonşu, bütün kənd, hətta qonşu kəndin, bütün o mahalın insanları həyətdəki ağaclarını kəsib yandırmışdılar. Tərslikdən o illərdə qış da sərt gəlmişdi, şaxtalı günlərin sayı daha çox idi. Belə olan halda insanlar məcbur qalaraq nəinki öz həyətyanı sahələrindəki ağacları kəsmişdilər, hətta kənd yollarının kənarlarında salınmış bağları yerlə-yeksan eləmişdilər, magistral yolların kənarındakı meyvə və meşə ağacları soyuqdan donmaq istəməyən insanların əllərindəki baltaların, mişarların önündə ayaq üstə durmağı bacarmamışdılar.

O zamanlar Naxçıvan şəhərinin küçələrində, yol kənarlarında, ayrı-ayrı parklarında ağaclar göz yumulmadan, heç nəyə əhəmiyyət verilmədən kəsilirdi.

Ən pisi də o idi ki, heç kim həyətinin, kəndinin, rayonunun, lap elə doğmaca şəhərinin, yaşadığı küçənin qayğısına qalmırdı, təmizliyinə fikir vermirdi. İnsanlardakı ruh düşkünlüyü, gələcəyə olan inamın itməsi hər sahədə olduğu kimi, təmizlik sahəsində də özünü göstərirdi. Natəmizlik baş alıb gedir, səliqə-sahmandan əsər-əlamət görünmürdü. Bir növ, hər tərəf küllükxanaya çevrilmişdi.

Naxçıvan şəhərinin çıxacağındakı yol kənarları, şəhərin mərkəzindəki pərakəndə bazar və dükanların çevrələri, kənd yerlərində məhəllə araları küllük yerlərinə dönmüşdü.

Bu yerdə oğlumun dərin fikrə getdiyini gördüm. Növbəti sualla qarşılaşacağımı düşündüm. Yanılmamışdım. Danışdığım o natəmizlik səhnələrini gözlərinin önündə canlandıran oğlum, – bəs indi o küllüklər necə oldu ki, heç yerdə onlara rast gəlmək olmur? Əgər o ağaclar kəsilmişdisə indi niyə yenə hər tərəfdə, yol kənarlarında yamyaşıl ağaclar var, bağlar güllükdür? – deyə soruşdu.

Balaca oğluma, – böyüyəndə hamısını özün oxuyacaqsan, biləcəksən, daha yaxşı anlayacaqsan, – deyib sualın cavabından yayınmaq istədim.

Üzümə dikilən cavab gözləyən baxışları qarşısında davam elədim:

– O zamanlar, dediyim kimi, yoxsulluq, kasıblıq, nəzarətsizlik, qanunsuzluq hökm sürdüyü üçün hər kəs qurub-yaratmaqdan daha çox sökük-dağıtmağa məcbur idi. Amma zaman keçdikcə xalqını, millətini, torpağını, Vətənini sevən insanlar bu qarmaqarışıq zamandan, təlatümlü dövrdən xalqı da, torpağı da, Vətəni də çıxara bildilər.

İnsanların gələcəyə ümidi artdı, yaxşı yaşayışa həvəsi yarandı. Sökük-dağıtmağın yerini,Vətənini sevən ağıllı insanlar sayəsində qurub-yaratmaq əvəz elədi. Yol kənarlarında ağaclar əkilməyə başlandı, parklarda, istirahət guşələrində güllüklər salındı. Pərakəndə bazar-dükanlar müasir ticarət mərkəzləri ilə əvəzləndi. Natəmizlik yerini səliqə-sahmana təhvil verdi.

* * *

Oğlumun yuxuladığını görüb yazı masamın arxasına qayıtdım.

Səhərisi gün Günəş salxım söyüdün budaqları arasından şəfəqlərini yayanda həyətdəki ağacların altında oynayan oğlumun ağaclarla qeyri-adi təmasını gördüm. Sanki oğlum onlarla söhbət edirdi.

Fikrimdə yanılmamışdım. Axşamçağı şəhərə dönəndə, – dədə, artıq babamgilin həyətindəki ağacları kəsməyəcəyik, düzdü, – deməsi qarşısında, – Əlbəttə, – cavabını verdim. Oğlumun bu sualı kimi, daha sonra dedikləri də düşündürücü idi:

– Səhər o ağacların altında oynayarkən axşam sənin danışdıqlarını bir daha düşündüm. Nə yaxşı ki mən o vaxtın uşaqlarından olmamışam. Nə yaxşı ki indi o vaxtkı kimi bir zaman deyil. Bunu babamgilin ağaclarına da dedim. Dedim ki, sizi kəsməyəcəyik.

Nə yaxşı ki o zamankı küllüklər indi güllüklərə çevrilib.

*Oğlumun son sözlərindən sonra maşının pəncərəsindən yol kənarlarındakı ağacları seyr edə-edə lap uzaqlara, uşaqlıq illərimə qayıtdım. Görəsən, oğlum danışdıqlarımın bizim uşaqlıq həqiqətlərimiz olduğunu anlayırmı? Görəsən, o, necə bir xoşbəxt zamanda yaşadığının fərqindədirmi?*

**Elxan YURDOĞLU**

# Naxçıvan beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib

***Qədim oğuz-türk yurdu olan Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalının uğurla başa çatması muxtar respublikada idmanın dünya standartları səviyyəsinə qaldırılmasının çox mühüm göstəricisidir. Hələ 2003-cü ildə Naxçıvan şəhərində gənclər arasında şahmat üzrə dünya çempionatının keçirilməsi bütün dünyada böyük əks-səda doğurmuşdu. O zaman muxtar respublikada sabitlik, yarışların keçirilməsi üçün şərait yaradılmasaydı, dünyanın 36 ölkəsindən gələn şahmatçılar qəbul edilə, yarışın yüksək səviyyədə keçirilməsi təmin oluna bilməzdi. Açığını deyək ki, məhz həyata keçirilən bu tədbirlər muxtar respublikada uşaq, yeniyetmə və gənclərdə “bəşər tarixinin ən qocaman kəşfi” adlandırılan şahmat idman növünə marağı daha da artırdı. Həmin yarış sonrakı möhtəşəm idman tədbirlərinin təməlini qoydu, bu istiqamətdə davamlı xarakter alan tədbirlər şahmatın inkişafına böyük təkan verdi.***





Ulu öndər Heydər Əliyevin digər idman növlərinə olduğu kimi, şahmata da böyük diqqət və qayğısı hesabına hələ ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövründə – ötən əsrin yetmişinci illərində ölkənin hər yerində olduğu kimi, muxtar respublikada da şahmat məktəbləri yaradılmış, buraya ixtisaslı kadrlar cəlb olunmuşdu. Ancaq 1987-ci ildən sonra bu sahə tamamilə unudulmuş, şahmat məktəbləri baxımsız vəziyyətə düşmüşdü. Ulu öndərimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra şahmat məktəbləri üçün yeni binaların tikintisi, mövcud binaların yenidən qurulması işinə başlanılmışdır. Belə mühüm tədbirlərdən biri də 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında Şahmat Federasiyasının yaradılması oldu. Bundan başqa, Naxçıvan şəhərində Şahmat Məktəbi tikilib istifadəyə verildi. Həyata keçirilən quruculuq tədbirləri təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmadı, rayonlarda şahmatın inkişafı üçün müxtəlif tədbirlər reallaşdırıldı. İlk olaraq 2006-cı ilin yanvar ayında Culfa şəhərində Şahmat Məktəbi üçün yeni bina istifadəyə verildi. Elə həmin ilin may ayında bu sevinci yaşayanlar sırasına şahbuzlular da qoşuldular. Şahbuz şəhərində ümummilli liderimizin adını daşıyan prospektdə Şahmat Məktəbi ucaldıldı. Bunun ardınca Şərur rayonunun şahmatçıları da yeni binanın sevincini yaşadılar. Bir ildə muxtar respublikanın üç rayonunda şahmat məktəbləri üçün yeni binaların istifadəyə verilməsi bu sahəyə nə qədər diqqət yetirildiyinin parlaq ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışlarının birində demişdir: ***“Uşaqların zehni inkişafında şahmatın xüsusi rolu var. Bu oyun onlara birinci olmağı, qalib gəlməyi təlqin edir. Bu, oğlanlar üçün daha çox vacibdir. Ona görə ki, onlar gələcəkdə torpaqlarımızın müdafiəçiləri olacaqlar. Şahmat gənclərdə özünəinam, liderlik keyfiyyətləri aşılayır. Odur ki, muxtar respublikada bu işə xüsusi diqqət yetirilir”.***

Bəli, şahmat möcüzəli bir oyundur. Bu idman növü hələ uşaq vaxtından insanda qalib gəlmək əzmini formalaşdırır, insanın zehni inkişafında mühüm rol oynayır. Deyirlər, şahmat formaca oyun, məzmunca incəsənət, bu oyuna yiyələnmə çətinliyinə görə elmdir. Buna görə də şahmatı təkcə idman növü kimi yox, eyni zamanda insan məntiqini zənginləşdirən elm kimi də qəbul etmək lazımdır. Ümumiyyətlə, şahmatın insana aşıladığı müsbət xüsusiyyətlər çoxdur. E.Lasker yazır ki, şahmat taxtası üzərində yalana və riyakarlığa yer yoxdur. Şahmat kombinasiyasının gözəlliyi ondadır ki, bu kombinasiya həmişə doğruçudur.

Bütün bunlar nəzərə alınaraq, muxtar respublikada şahmatın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında 2009-cu ildə Naxçıvan şəhərində Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə ən müasir avadanlıqlarla təchiz edilmiş Şahmat Mərkəzinin istifadəyə verilməsini də qeyd etməliyik.

Ölkə rəhbəri 2009-cu il mayın 5-də “2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramının təsdiq edilməsi barədə” Sərəncam imzalayıb. Dövlət proqramına uyğun olaraq, şahmatın inkişafı istiqamətində muxtar respublikamızda da silsilə tədbirlər görülür. Belə ki, 2011-ci ilin iyul ayında Ordubad rayonunda şahmat məktəbi üçün yeni binanın istifadəyə verilməsi rayon şahmatçılarının böyük sevincinə səbəb olub. 2012-ci ildə “Naxçıvan Open-2012” Beynəlxalq Şahmat Festivalının keçirildiyi ərəfədə Sədərək rayonunda şahmat məktəbi üçün yeni bina istifadəyə verilib. 2013-cü ildə isə bu sevinci Babək rayonunun sakinləri yaşayıblar.

Məhz yuxarıda sadalanan tədbirlər muxtar respublikada beynəlxalq yarış və turnirlərin keçirilməsinə şərait yaradıb. Mütəxəssislərin fikrincə, hər hansı bir ölkədə beynəlxalq yarışlar keçirilərkən 3 əsas meyar nəzərə alınır. İlk növbədə, həmin ölkədə idmanın inkişafı, ikincisi, bu sahədə maddi-texniki bazanın vəziyyəti, üçüncüsü isə təşkilatçılıq. Sevindirici haldır ki, bütün bunlar muxtar respublikada yüksək səviyyədədir. 2003-cü ildə Naxçıvanda 20 yaşa qədər gənclər arasında şahmat üzrə dünya çempionatının, bir neçə ildir, Beynəlxalq Şahmat festivallarının yüksək səviyyədə keçirilməsi bunu sübut etdi.

Bu günlərdə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş gənclər arasında sərbəst güləş üzrə “Naxçıvan kuboku” uğrunda beynəlxalq yarış və Şahmat Mərkəzində keçirilən “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalı da öz möhtəşəmliyi ilə yadda qaldı. İstər güləş, istərsə də şahmat yarışında naxçıvanlı idmançılar uğurlu çıxışlar etdilər. Nəzərə alaq ki, yarışlarda beynəlxalq dərəcəli idmançılar iştirak edirdi. Və yarışlarda idmançılarımızın çıxışları gələcəkdə daha parlaq uğurların qazanılmasına böyük ümidlər yaradır. Müsahib olduğumuz idman mütəxəssisləri də təsdiq etdilər ki, Naxçıvanı bundan sonra daha böyük uğurlar gözləyir. Yəni Naxçıvanda qrossmeysterlər, şahmat ustalarının yetişməsinə şübhə yoxdur.

Bəli, Naxçıvan Muxtar Respublikası sərbəst güləş üzrə “Naxçıvan kuboku” uğrunda beynəlxalq yarış və “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalının yüksək səviyyədə təşkili ilə nəyə qadir olduğunu bir daha sübut etdi. Bu isə onu göstərir ki, təcavüzkar Ermənistan dövləti Naxçıvanı blokadaya salsa da, bu gün bu blokadanın çətinliklərini regionun sakinləri hiss etmirlər. Naxçıvan inkişaf edir, əminliklə irəliyə doğru addımlayır. Hələ qədim diyarımızı neçə-neçə belə beynəlxalq yarışlar gözləyir…

**Sara ƏZİMOVA**

---

# Naxçıvan gömrükçüləri turnirin qalibi olublar

***Azərbaycan Respublikası gömrük orqanları arasında təşkil olunan futzal turnirinə yekun vurulub. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 22-ci ildönümünə həsr olunan yarışın qalibi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası olub. Artıq ənənə halını almış turnirdə dəfələrlə çempionluq sevinci yaşayan “Naxçıvan” komandasının növbəti uğuru məhz muxtar respublikamızın 90 illik yubileyinə təsadüf edib.***

Həlledici qarşılaşma “Naxçıvan” və “HNBGİ” (Hava Nəqliyyatında Baş Gömrük İdarəsi) komandaları üz-üzə gəlib. Final matçı ümummilli liderimizin doğum günündə – may ayının 10-da Bakı şəhərindəki ABU ARENA-da baş tutub.

Rəqibin əks-hücum taktikası oyunun 12-ci dəqiqəsində öz bəhrəsini verib. Qapı önündə yaranmış qarışıqlıq zamanı Ramazan Ağayevin topu uzaqlaşdırmaq istəyi avtoqolla nəticələnib. Buna baxmayaraq, birinci hissənin tamamında futzalçılarımız “status-kvo”nu bərpa etməyi bacarıblar. Aynar İsmayılov rəqib qapıçı üçün çıxış yeri qoymayıb.

Oyunun ikinci hissəsi də gərgin və maraqlı alınıb. Komandamızı hesabda önə keçirən Aynar İsmayılov sona beş dəqiqə qalmış hettrikini rəsmiləşdirməklə yekun nəticəni müəyən edib: 3:1.

Final oyunundan əvvəl keçirilmiş üçüncülük uğrunda qarşılaşmada isə Bakı Baş Gömrük İdarəsinin komandası Biləsuvar Gömrük İdarəsinin futzalçılarına məğlubiyyətə uğradıb.

Sonra qaliblərin və şəxsi göstəricilərə görə turnirdə fərqlənənlərin mükafatlandırılması mərasimi olub. Komandamızın qapıçısı Rahil Tahirli turnirin ən yaxşı qapıçısı, Aynar İsmayılov isə ən məhsuldar oyunçu seçilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

---

# Tikinti meydançasında tibbi təlim

***Muxtar respublikamızda tikinti-quraşdırma və abadlıq işlərinin həcmi ildən-ilə öz əhatə dairəsini genişləndirir. Hazırda regionun tikinti təşkilatlarında minlərlə işçi çalışır. Bu göstərici tikinti sektorunun muxtar respublika iqtisadiyyatındakı rolunu və əhəmiyyətini göstərməklə yanaşı, bu sahədə əməyin təşkili və təhlükəsizlik məsələlərinə diqqətin artırılmasını da zəruri etmişdir.***

İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlərlə əlaqədar 2011-ci il iyun ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə verilən tapşırıqların icrası üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində hazırlanmış tədbirlər planı ardıcıl şəkildə həyata keçirilir.

Naxçıvan şəhərindəki Gənclər şəhərciyinin tikinti meydançasında 68 nəfər inşaatçı və quraşdırıcının iştirakı ilə tibbi təlim təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-cərrahı, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzov tikinti obyektlərində baş verən istehsalat qəzalarında insanların sağlamlığının qorunması üçün həyata keçirilən tədbirlərdən danışmışdır.

Naxçıvan Muxtar Respublika Xəstəxanası Travmatologiya şöbəsinin həkim-ordinatoru, tibb üzrə fəlsəfə doktoru Yaşar Rzayev, Reanimasiya şöbəsinin ordinatoru Hüseyn Abdullayev və Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin çağırışçı- həkimi Afiyəddin Qasımov xarici və daxili, arterial, venoz, kapillyar qanaxmalar, kəllə-beyin travmaları, zədələnmə və sınıqlar, ürək, ağciyər çatışmazlığı zamanı göstərilən ilkin tibbi yardım barədə məlumat vermişlər.

Təlimdə əyani vasitələrdən geniş istifadə olunmuş, suallar cavablandırılmışdır.

Obyektin inşasını aparan “Cahan İnşaat” MMC-nin tikintidə təhlükəsizlik şöbəsinin müdiri Bülənd Pala inşaatçıların səhiyyə maarifində belə tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamış, kollektiv adından səhiyyə işçilərinə öz minnətdarlığını bildirmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Əmək müqaviləsi nə vaxt hüquqi qüvvəyə minir?*

***Cavab:*** Əmək qanunvericiliyinə əsasən, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasındakı əmək münasibətləri istisna olmaqla, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilir. Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən, əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin (sayı on nəfər və ondan çox olan) hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə isə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Yuxarıda qeyd olunan əməllər Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən, cinayət məsuliyyətinə səbəb olmadıqda inzibati məsuliyyətə səbəb olur. Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslər hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə, fiziki şəxslər min manatdan üç min manatadək miqdarda, vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilirlər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

---

## *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin müəllimi Zemfira Əhmədovaya, əzizi
**ARİF ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Xatirə Hüseynovaya, anası
**HƏLİMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhərindəki 156 saylı əczaxananın müdiri Haqverdi Novruzov və əczaxananın kollektivi sabiq iş yoldaşları
**FİRUDİN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əli Qasımov, Haqverdi Novruzov, Məmmədbağır Quliyev, Bəybala Məmmədov, Asəf Xudiyev, Rafiq Hacıyev, Yaşar Quliyev, Cəfər Nəsirov sabiq iş yoldaşları
**FİRUDİN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Fiziki tərbiyə və idman oyunları kafedrasının baş müəllimi Kifayət Hüseynovaya, anası
**HƏLİMƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin Laboratoriya şöbəsinin əməkdaşları iş yoldaşları Malikəjdər İbrahimova, Rəna Əliyevaya və Şəhla Əhmədovaya, əzizləri
**ARİFİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin ingilis dili ixtisası üzrə IV kurs tələbələri qrup yoldaşları Aynur Aydınlıya, qayınatası
**ZAHİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 429